“Unibank” Kommersiya Bankı” Açıq Səhmdar Cəmiyyəti

**Hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 20 000 (iyirmi min) ədəd, faizli, sənədsiz, adlı, təmin edilməyən istiqrazların**

# EMİSSİYA PROSPEKTİ

Bakı 2021-ci il

Unibank
Sənin Bankın

# MÜNDƏRİCAT

1. BƏYANAT ... 3
2. XÜLASƏ ... 4
3. EMİTENTİN AUDİTORLARI BARƏDƏ MƏLUMAT ... 13
4. EMİTENT BARƏDƏ MƏLUMAT ... 14
5. EMİTENTİN BİZNESİNİN İCMALI ... 14
7. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK ... 17
8. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT ... 18
9. GƏLİR PROQNOZU HAQQINDA HESABAT ... 19
10. EMİTENTİN İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI ... 19
11. EMİTENTİN NİZAMNAMƏ KAPİTALINDA MÜHÜM İŞTİRAK PAYINA SAHİB OLAN ŞƏXSLƏR ... 20
12. EMİTENTİN MALİYYƏ MƏLUMATLARI ... 20
13. İSTİQRAZLAR BARƏDƏ TƏLƏB OLUNAN ƏSAS MƏLUMAT ... 21
14. İSTİQRAZLAR BARƏDƏ MƏLUMAT ... 22
15. TƏKLİFİN ŞƏRTLƏRİ ... 25
16. İSTİQRAZLARIN TİCARƏTƏ BURAXILMASI VƏ ONUN TƏNZİMLƏNMƏSİ ... 27
17. KREDİT REYTİNQLƏRİ ... 28
ƏLAVƏLƏR ... 28
AUDİT OLUNMUŞ MALİYYƏ HESABATLARI ... 28

Unibank
Sənin Bankın

## 1. BƏYANAT

BAZA EMİSSİYA PROSPEKTİNİN TƏRTİB EDİLMƏSİNDƏ İŞTİRAK EDƏN ŞƏXSLƏR VƏ BAZA EMİSSİYA PROSPEKTİNDƏ TƏQDİM EDİLMİŞ MƏLUMATLARA DAİR BƏYANAT

Biz aşağıda imza edənlər,

1.1. Bu Emissiya Prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27.01.2016-cı il tarixli, 05 saylı Qərarı ilə təsdiq edilmiş "Emissiya Prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.

1.2. "Unibank" Kommersiya Bankı" ASC-nin hər birinin nominal dəyəri 1000 (bir min) manat olan 20 000 (iyirmi min) ədəd faizli, təminatsız, sənədsiz, adlı istiqrazların Emissiya Prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyi və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

"Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin Sədri:

Faiq Hüseynov Arif oğlu ________________

KOMMERSİYA BANKI UNİBANK COMMERCIAL BANK

"Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin üzvü, Baş Maliyyə İnzibatçısı, Maliyyə direktoru:

Faiq Zeynalov Vahib oğlu ________________

## 2. XÜLASƏ

2.1. **Xəbərdarlıq**

2.1.1. Bu sənəd Emissiya Prospektinin giriş hissəsidir.

2.1.2. İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun Emissiya Prospektini oxuduqdan sonra həyata keçirilməlidir.

2.1.3. Emissiya Prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya İstiqrazlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Emissiya Prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

2.2. **Emitent barədə məlumat**

2.2.1. **Emitentin tam adı, təşkilatı hüquqi forması:** "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra Emitent və ya Cəmiyyət).

2.2.2. **Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası, Bakı şəh., AZ1014, R.Behbudov küç., 55, məhəllə 384, Açıq Səhmdar Cəmiyyəti

2.2.3. **Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:**

**Rəqəmsallaşmanın tətbiqi.**

✓ Emitent həm fərdi, həm də korporativ bankçılıqda əsas tendensiyalardan biri kimi qəbul edilən rəqəmsallaşmanın effektiv və sürətli tətbiqinə xüsusi önəm verir. İstehlakçı əməliyyatlarının müştəri tərəfindən mobil tətbiq və ya internet bankçılığı üzərindən aparılması həm resursların optimal idarəsinə, həm xidmət keyfiyyətinin yüksəlməsinə, həm də əməliyyat səmərəliliyinin artmasına səbəb olacaq. Rəqəmsallığa keçid müştəri məlumatlarının daha rahat toplanması və analitikasına da öz növbəsində müsbət təsir edəcəkdir.

**İstehlakçı inamının qorunması və məlumatların təhlükəsizliyi.**

✓ Rəqəmsallaşma ilə istehlakçı və bank arasında informasiya assimetriyası azalsa da onlayn əməliyyatlara adaptasiya istehlakçının bankın IT sisteminə və məlumat təhlükəsizliyinə olan tələblərini daha da artırır. Bu tendensiyanın fonunda Bank IT sistemlərinin optimallaşdırılması, əməliyyat zamanı meydana gələn uğursuz cəhdlərin və gecikmə müddətinin minimallaşdırılmasını əsas amillərdən biri kimi qiymətləndirir.

**İqtisadi faktorlar.**

✓ Post-pandemiya dövründə, xüsusilə də, artan COVİD-19 yoluxma sayının kəskin artması ilə iqtisadi bərpanın yavaşlaması bir çox iqtisadi göstəricilərin xüsusilə də inflyasiyanın gözlənilən volatilliyini artırır. Belə ki, fors-major hal hesab edilən pandemiya, xəstələr arasında yoluxma sayının artıb azalması, yeni növ ştamların formalaşması bankın məhsullarına olan mövcüd tələbə də mənfi təsir edə bilər.

Unibank
Sənin Bankın

**Sosial Faktorlar**

✓ Demoqrafik dəyişikliklər, xüsusilə də əhalinin yaş bölgüsündə gənc nüfusun payının artması bankçılıqda istehlakçı davranışlarının dəyişməsini və bu dəyişikliklərə biznesin sürətli adaptasiyanısı tələb edir. "X" və "Z" nəslinin onlayn əməliyyatlara üstünlük verməsi, ənənəvi bankçılığa da təsir göstərir. Habelə, pandemiya dövründə insanlar gündəlik yaşayışında və davranışlarında olan dəyişikliklər, daha durğun həyat tərzi bankçılığa təsir edən amillərdəndir.

2.2.4. **Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:**

- "Unicapital" İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti. Emitentin ASC-nin nizamnamə kapitalında payı 100% təşkil edir. Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, Rəşid Behbudov küç. 55 384-cü məhəllə; VÖEN: 1401258741

"Unicapital" İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinə icazə verilən əsas və yardımçı investisiya xidmətlərinin siyahısı aşağıdakı kimidir:

**Əsas investisiya xidmətləri:**

✓ qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi;
✓ fərdi investorların portfelinin idarə edilməsi;
✓ investisiya məsləhətlərinin verilməsi;
✓ qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderraytinqi;
✓ qiymətli kağızların öhdəlik götürməklə yerləşdirilməsi və anderraytinqi;
✓ mərkəzi depozitarın və fond birjasının üzvü qismində öz hesabına qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə əməliyyatlar aparılması;
✓ marja ticarəti.

**Yardımçı investisiya xidmətləri:**

✓ müştərisinin qiymətli kağızlar hesablarının idarə edilməsi, o cümlədən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi, o cümlədən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatların həyata keçirilməsi;
✓ investorlarla qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə həyata keçirdiyi əqdlərin bağlanması üçün kredit və ya digər formada borc verilməsi;
✓ qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə bağlı investisiya tədqiqatı və maliyyə təhlilinin aparılması;
✓ təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı xidmətinin həyata keçirilməsi;

✓ əsas investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi ilə bağlı xarici valyuta mübadiləsi.

- "MilliKart" Məhdud Məsuliyyətli Cəmiyyət. Emitentin MMC-nin nizamnamə kapitalında payı 8 % təşkil edir. Ünvan: Bakı şəh., Alı Mustafayev, 5A. VÖEN: 1400980591. MilliKart kart əməliyyatları mübadiləsində infrastrukturun tərkib hissəsidir. "MilliKart" MMC hesablarının dəstəklənməsi, sms bankçılıq, pos terminalların dəstəklənməsi, kartların personalizasiyası, pin zərflərin çapı üzrə xidmətlər göstərir. (https://millikart.az/az/services.html)
- S.W.I.F.T (Ümumdünya Banklararası Maliyyə Telekommunikasiya Cəmiyyəti). SWIFT – korporativ üzvlüyə malik olan və təhlükəsiz maliyyə mesajlaşma xidmətləri üzrə dünyanın aparıcı provayderidir. Emitentin onun nizamnamə kapitalında payı 3,43% təşkil edir.SWIFT-in mesajlaşma xidmətləri dünyanın 200-dən çox ölkəsində və ərazilərində 11000-dən çox maliyyə qurum tərəfindən istifadə olunur və etibarlıdır. SWIFT-in standartlaşdırma sahəsində rolu banklar və digər maliyyə institutları arasında təhlükəsiz, maneəsiz və avtomatlaşdırılmış maliyyə əlaqələrini təmin etməkdir. Ünvan: 1, Avenue Adèle, B-1310 La Hulpe (Belçika) RPM Nivelles – VAT BE 0413.330.856 e-mail: shareholding@swift.com Fax: +32 2 655 4036; Tel: +32 2 655 4490 (https://www.swift.com)
- Azərbaycan Kredit Bürosu MMC. Emitentin MMC-nin nizamnamə kapitalında payı 12.50 % təşkil edir. Ünvan:Bakı şəhəri, S.Vurgun küçəsi 43, VÖEN 1305349901.

2.2.5. **Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcud deyil.
2.2.6. **Pul vəsaitlərinin hərəkəti proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcud deyil.
2.2.7. **Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:**
Biz «Baker Tilly Azerbaijan» Qapalı Səhmdar Cəmiyyəti, "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti və onun törəmə şirkəti olan "Unicapital" İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinə 31 dekabr 2020-ci il tarixinə təqdim edilən konsolidasiya olunan maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlirlər haqqında hesabat, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat prinsiplərinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını aparmışıq. Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.
2.2.8. **Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından sonra emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat:** Mövcud deyil.

2.2.9. **Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri:**

| min manatla | | | |
|---|---|---|---|
| | **2018** | **2019** | **2020** |
| **Gəlirlər** | 59,344 | 84,666 | 94,113 |
| **Xalis mənfəət (zərər)** | 30,863 | 79,400 | (16,775) |
| **Cəmi aktivlər (dövrün sonuna)** | 694,729 | 823,286 | 806,906 |
| **Cəmi öhdəliklər (dövrün sonuna)** | 638,699 | 687,702 | 693,091 |
| **Cəmi kapital (dövrün sonuna)** | 56,030 | 135,584 | 113,815 |
| **Pul vəsaitləri (dövrün sonuna)** | 109,988 | 143,749 | 106,494 |

2.2.10. **Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:**

2.2.10.1. **Xarici faktorlar/hadisələr:** Pandemiya və sonrakı dövrdə istehlakçı davranışlarının, eləcə də texnoloji mühitdə baş verən bütün dəyişikliklər və emitentin bu tendensiyalara olan uğurlu reaksiyası

2.2.10.2. **İqtisadi faktorlar:** Post-pandemiya şəraitində ölkə üzrə iqtisadi böyümənin çətinləşməsi, inflyasiyanın yüksək səviyyəsi, bankın məhsulları üzərində təsiri və alıcılıq qabiliyyətinin aşağı düşmə ehtimalı, habelə qlobal maliyyə bazarlarında baş verən dalğalanmanın ölkə iqtisadiyyatına təsiri

2.2.10.3. **Daxili faktorlar**: Pandemiyadan sonrakı dövrdə artan istehlakçı güvəni və iqtisadi bərpa fonunda bankın böyümə strategiyası təşkili, gəlirlərin müsbət artım tendensiyası və rəqabətli bazar mühitində davamlılıq strategiyasının optimal tətbiqi, yenidən brendləşdirmə və güclü marketinq strategiyası

2.2.11. **Emitentin əsas fəaliyyətlərinin təsviri:** Emitent müştəri yönümlü bank olaraq müxtəlif regionlarda müştərilərin tələbatını nəzərə alır və qlobal xarakter daşıyan, eyni zamanda lokal bazarlar üçün adaptasiya olunmuş, çoxsahəli kredit məhsulları və maliyyə xidmətlər təqdim edir. Əsas məqsədin icrası ilə əlaqədar aşağıdakı fəaliyyətləri həyata keçirir:

2.2.11.1. Azərbaycan Respublikasının iqtisadiyyatının və ölkədə bank işininin inkişafına və ölkənin dünya iqtisadiyyatına inteqrasiyasına köməklik göstərmək;

2.2.11.2. Bank, maliyyə və sərmayə qoyuluşu sahəsində xidmətlər göstərmək;

2.2.11.3.sahibkarlıq fəaliyyətinin inkişafına yönəlmiş yerli və xarici sərmayələrin və kreditlərin cəlb edilməsini təmin etmək;

2.2.11.4. öz vəsaitlərini, hüquqi və ayrı-ayrı fiziki şəxslərdən cəlb olunmuş vəsaitləri Azərbaycan iqtisadiyyatının və Emitentin öz fəaliyyətinin inkişafına yönəltmək;

2.2.11.5. Azərbaycan Respublikasının Qanunvericiliyinə, Emitentin Səhmdarlarının və müştərilərinin maraqlarına zidd olmayan Bank lisenziyasında nəzərdə tutulmuş maliyyə, kredit və digər sahibkarlıq fəaliyyətini həyata keçirmək.

2.2.11.6. Azərbaycan Respublikasının Qanunvericiliyi və bank lisenziyası ilə müəyyən edilən hüdudlarda Emitent aşağıdakı Bank əməliyyatlarını həyata keçirmək hüququna malikdir:
2.2.11.7. tələbli və müddətli depozitlərin , digər qaytarılan vəsaitlərin cəlb edilməsi;
2.2.11.8. bütün növ təminatlı və təminatsız kreditlərin, o cümlədən istehlak və ipoteka kreditlərinin və digər kredit növlərinin verilməsi;
2.2.11.9. faktorinq, forfeytinq və lizinq xidmətlərinin göstərilməsi;
2.2.11.10. müştərilərin hesablarının açılması və aparılması;
2.2.11.11. digər Banklar üçün müxbir hesabların açılması və aparılması;
2.2.11.12. klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlərin göstərilməsi;
2.2.11.13. ödəniş vasitələrinin, o cümlədən debet və kredit kartların, yol çeklərinin, veksellərin və digər oxşar vasitələrin buraxılması;
2.2.11.14. öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin, o cümlədən çeklərin, köçürmə veksellərinin, borc öhdəliklərinin və depozit sertifikatlarının, qiymətli metalların və qiymətli daşların, valyuta və faiz vasitələrinin, səhmlərin və digər qiymətli kağızların, forvard, svop və fyuçers müqavilələrinin, opsionların və valyutalara, səhmlərə, istiqrazlara, qiymətli metallara və faiz dərəcələrinə aid digər törəmə vasitələrin alınması və satılması;
2.2.11.15. öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi;
2.2.11.16. öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;
2.2.11.17. maliyyə müşavirinin, maliyyə agenti və ya məsləhətçisi, o cümlədən qiymətli kağızlar portfelinin idarə edilməsi üzrə məsləhətçi xidmətlərin göstərilməsi;
2.2.11.18. kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;
2.2.11.19. sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq);
2.2.11.20. qiymətli metalların əmanətə cəlb edilməsi və yerləşdirilməsi;
2.2.11.21. qiymətlilərin, o cümlədən qiymətli kağızların, banknotların və sikkələrin inkasasiya edilməsi və göndərilməsi;
2.2.11.22. Azərbaycan Respublikasının Qanunvericiliyinə, o cümlədən Azərbaycan Respublikası maliyyə bazarlarına nəzarət orqanının tətbiq olunan qərarlarına zidd olmayan hər hansı digər fəaliyyəti.
2.2.12. **Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti:** Emitentin ümumi fəaliyyətinə nəzarəti Səhmdarların Ümumi Yığıncağı və Müşahidə Şurası həyata keçirir. Mühüm iştirak payına sahib olan səhmdarlar Müşahidə Şurasının iclaslarında şəxsən və ya nümayəndələri vasitəsilə təmsil olunurlar.

2.3. **Qiymətli kağızlar haqqında məlumat**

2.3.11. **İstiqrazların növü:** Faizli, təminatsız, sənədsiz, adlı istiqrazlar.

2.3.12. **İstiqrazların valyutası:** Azərbaycan Manatı.

2.3.13. **İstiqrazlarla təsbit olunan məhdudiyyətlər:** Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

2.3.14. **İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

2.3.14.1. Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini bütün digər kreditorların tələbləri bütün digər kreditorların tələbləri ilə birlikdə növbəlilik prinsipi əsasında Emitentdən tələb etmək;

2.3.14.2. Özünə məxsus istiqrazların vəziyyəti barədə məlumat almaq üçün birbaşa Milli Depozit Mərkəzinə (bundan sonra "Mərkəzi Depozitar") müraciət etmək;

2.3.14.3. İstiqrazları girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yükləmək. Belə yüklənmə qiymətli kağızlar üzrə depozitar sistemində qeydiyyata alındığı andan qüvvəyə minir;

2.3.14.4. İstiqrazlarla təsdiqlənmiş hüquqları alqı-satqı əqdləri bağlamaq yolu ilə ötürmək;

2.3.14.5. İstiqrazlar üzrə ödənilən faizlər təxirə salınarsa, həmin müddət ərzində ödənilməyən faizləri istiqrazların ödənilmə vaxtında almaq;

2.3.14.6. İstiqrazları tədavül müddəti ərzində istənilən vaxt özgəninkiləşdirmək;

2.3.14.7. İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;

2.3.14.8. İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik 9 (doqquz) faiz həcminə qədər faiz almaq;

2.3.14.9. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

2.3.15. **İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 9 faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül dövründə (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 18 ay müddətində , ildə günlərin sayı 360 (üç yüz altmış) olaraq götürülməklə) istiqrazların tədavül müddəti ərzində ardıcıl olaraq hər 90 (doxsan) təqvim gününün başa çatması tarixindən növbəti 3 iş günündən gec olmayaraq ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirilir. İstiqrazların nominal dəyəri sonuncu kupon ödənişi ilə birlikdə ödəniləcəkdir.

2.3.16. **Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:** Təminatsızdır.

2.3.17. **İstiqrazların geri satın alınma şərtləri:** İstiqrazların emitent tərəfindən geri satın alınması nəzərdə tutulmamışdır.

2.3.18. **Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazlar üzrə kupon gəlirliyi illik 9 (doqquz) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$TF = \frac{\left(\frac{N * D * G}{360}\right)}{100}$$

Burada:

$TF$ – Bir istiqraz üzrə toplanmış faizlər;

$N$ – Bir istiqrazın nominal dəyəri (1,000 (bir min) manat);

$D$ – İstiqrazların illik faiz dərəcəsi (9 (doqquz) %);

$G$ – İstiqrazlar üzrə son kupon ödənişindən sonra keçən günlərin sayı.

2.3.19. **İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** İstiqrazların kütləvi yerləşdirilməsi nəzərdə tutulduğundan istiqrazların mülkiyyətçisi yalnız onların yerləşdirilməsindən sonra müəyyən oluna bilər.

2.3.20. **Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

2.3.21. **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda, səhmlərin ticarətə buraxılacağını tənzimləyən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya Prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

2.4. **Risk faktorları**

2.4.1. **Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:** İstiqrazları əldə edən şəxs aşağıdakı əsas risklərin mövcud olduğunu bilməli və nəzərə almalıdır:

2.4.1.1. **Kredit riski –** Emitentin istiqrazlar tədavüldə olan müddətdə onlar üzrə faiz (kupon) ödənişlərinin və müddətin sonunda əsas nominal dəyər üzrə ödənişin həyata keçirə bilməməsi riskidir. Emitentin öz öhdəliklərinin yerinə yetirməməsi və ya yerinə yetirməməsi ehtimalının artması istiqrazların bazar qiymətinə mənfi təsir edir. Bu halın baş verməsi bir çox amillərdən, o cümlədən Emitentin mövcud və gələcəkdə yaranacaq öhdəliklərinin kapitala nisbətindən, satdığı əsas məhsulların və xidmətlərin bazar qiymətinin azalması ilə Emitentin ödəniş qabiliyyətinin zəifləməsi və bir sıra digər amillərdən asılıdır.

2.4.1.2. **Hesablaşma və kontragent riski** - hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;

2.4.1.3. **Əməliyyat riski** - daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələ biləcək itkilər.

2.4.1.4. **Likvidlik riski** - müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;

2.4.2. **İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:** İqtisadi kiçilmə, alıcılıq qabliyyətinin aşağı düşməsi və onun satışlar üzərində mənfi təsiri, təbii fəlakətlərin baş verməsi (fors-major hallar), qlobal və yerli rəqabət, qanunvericilikdə emitentin fəaliyyətinə birbaşa və dolayı yolla təsir edə bilən dəyişikliklər.

2.5. **Təklif**

2.5.1. **Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:**

Bu istiqrazların buraxılışı Azərbaycan Respublikasının qiymətli kağızlar bazarının inkişafına töhfə vermək və bankın aktivlərinin artırılmasını dəstəkləmək məqsədi ilə Emitentə mütəşəkkil kapital bazarından sərbəst vəsaitlərinin cəlb edilməsinə və pul vəsaitlərinin resurs bazasının fərqləndirilməsinə imkan yaradacaqdır. Emissiyadan əldə olunan vəsait bankın strateji hədəflərini reallaşdırması, bazar nüfüsunun və bazar payının artırılması, eləcə də xarici mühitdə yaranacaq hər növ dəyişikliyə cəld və effektiv adaptasiyanın təmini üçün lazımi resursların və mexanizmlərin təkmilləşdirilməsinə investisiya olunacaq. Əlavə olaraq, ölkə daxilində sərfəli və keyfiyyətli bankçılıq xidmətləri təklif etməklə regionlarda real iqtisadiyyatın maliyyələşdirilməsi region bölgələrində iqtisadi rifahın və məşğulluğun artırılmasına müsbət təsir göstərəcəkdir.

2.5.2. **Təklifin şərtlərinin təsviri:** Emissiya ediləcək istiqrazlar qanunvericiliklə müəyyən edilmiş orqan (qurum) tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 iş günü qalmış hərracın baş tutacağı tarix "Bakı Fond Birjası" QSC-nin və Anderrayterin saytında investorlara açıqlanacaqdır. İstiqrazlar kütləvi təklif üsulu ilə Bakı Fond Birjasında 18 (on səkkiz) ay müddətli, təminatsız, sənədsiz, adlı, istiqraz nominal dəyəri 1000 (bir min) Azərbaycan manatı olmaqla, illik 9 (doqquz) faiz (kupon) dərəcə və kuponun rüblük ödəniş şərti ilə 20 milyon Azərbaycan manatı dəyərində emissiya olunacaqdır.

2.5.3. **Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:** İstiqraz buraxılışı üzrə yerləşdirmənin başlanma və başa çatma tarixləri istiqrazlar dövlət qeydiyyatın alındıqdan sonra "Bakı Fond Birjası" QSC-yə təqdim olunacaq hərrac (kütləvi yerləşdirmə) tarixləri ilə müəyyənləşəcək. İnvestisiya qiymətli kağızlarının yerləşdirilməsi müddəti başlandığı tarixdən etibarən yeddi iş günündən çox olmamalıdır.

2.5.4. **Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:** Emissiya prospektində dəyişikliklərin dövlət

Unibank
Sənin Bankın

qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 (beş) iş günü ərzində qanunvericilikdə müəyyən edilmiş orqana (quruma) təqdim edilir.

2.5.5 **Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və emitentin internet səhifəsində açıqlanır.

2.5.6. **Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat:** Maraqlar toqquşması mövcüd deyildir.

2.5.6.1. **"Bakı Fond Birjası" QSC.** Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

2.5.6.1.1. İstiqrazların listinqə daxil edilməsi;

2.5.6.1.2. İstiqrazların hərrac vasitəsilə yerləşdirilməsi üçün müvafiq ticarət sisteminin təmin edilməsi;

2.5.6.1.3. İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi.

2.5.6.2. **"Milli Depozit Mərkəzi".** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

2.5.6.2.1. İstiqrazların saxlanması və uçotunun aparılması;

2.5.6.2.2. İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;

2.5.6.2.3. Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

2.5.6.3. **Anderrayter.** "Unicapital İnvestisiya Şirkəti" ASC. Müvafiq lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. İstiqrazların buraxılışı və yerləşdirilməsi prosesində anderrayterin vəzifələri aşağıdakılardır:

2.5.6.3.1. İstiqrazların yerləşdirilməsi üzrə hərrac zamanı toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;

2.5.6.3.2. Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alqı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək;

2.5.6.3.3. Emissiyanın yekunları haqqında hesabat Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq ediləndən sonra, yerləşdirmə nəticəsində toplanmış pul vəsaitlərini Emitentin bank hesabına köçürülməsini təmin etmək.

2.5.7. **İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

2.5.7.1. **Vergilər**. İstiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində tutulan vergidən fiziki şəxslər 2023-cü ilin fevral ayının 1-dək azaddırlar. Hüquqi şəxslərə istiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində 10 % vergi tətbiq edilir.

İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

2.5.7.2. **Xərclər**. İstiqrazın əldə olunması ilə bağlı broker xərcləri investisiya şirkətlərinin tarif siyasətindən asılıdır. Bu barədə məlumat almaq istəyən investorlar onlara investisiya xidməti göstərən investisiya şirkətinə müraciət etməlidir. Bakı Fond Birjasında yerləşdirmə xərcləri isə icra olunan əqdin həcmindən 0.02% (sıfır tam yüzdə iki faiz) olmaqla təşkil edir.

## 3. EMİTENTİN AUDİTORLARI BARƏDƏ MƏLUMAT

### 3.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:

| İl: | Auditorun adı: | Auditorun ünvanı: | Auditorun üzv olduğu təşkilat: |
|---|---|---|---|
| 2018 | «Baker Tilly Azerbaijan» Qapalı Səhmdar Cəmiyyəti | Xocalı pr.37, Dəmirçi Plaza, 16-cı mərtəbə, Bakı, Azərbaycan T: +994 (12) 4047666 \| F: +994 (12) 4047667 | Baker Tilly International |
| 2019 | «Baker Tilly Azerbaijan» Qapalı Səhmdar Cəmiyyəti | Xocalı pr.37, Dəmirçi Plaza, 16-cı mərtəbə, Bakı, Azərbaycan T: +994 (12) 4047666 \| F: +994 (12) 4047667 | Baker Tilly International |
| 2020 | «Baker Tilly Azerbaijan» Qapalı Səhmdar Cəmiyyəti | Xocalı pr.37, Dəmirçi Plaza, 16-cı mərtəbə, Bakı, Azərbaycan T: +994 (12) 4047666 \| F: +994 (12) 4047667 | Baker Tilly International |

3.2. **Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** 2017-ci ildən etibarən «Baker Tilly Azerbaijan» QSC ilə

əməkdaşlığa başlanılmış və emissiya prospektinin tərtibi tarixinədək auditorların əvəzlənməsi və ya dəyişdirilməsi həyata keçirilməmişdir.

## 4. EMİTENT BARƏDƏ MƏLUMAT

4.1. **Emitentin tam adı, təşkilati-hüquqi forması:** "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti

4.2. **Emitentin dövlət qeydiyyatının rekvizitləri, Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** Emitent 27 iyul 1992-ci il tarixində Azərbaycan Respublikası Milli Bankı (hazırda Mərkəzi Bankı) tərəfindən dövlət qeydiyyatına alınmışdır və 15 oktyabr 2002-ci il tarixində "Promtexbank" Səhmdar Kommersiya Bankının qoşulduğu "Mbank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin hüquqi varisi olmaqla onun bütün hüquq və vəzifələrini əldə edib. 27 dekabr 2002-ci il tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş dəyişiklik əsasında Bank "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti adlandırılmışdır. Emitent 14 dekabr 2010-cu il tarixli Azərbaycan Respublikası Milli Bankı (hazırda Mərkəzi Bankı) tərəfindən müddətsiz olaraq verilmiş 73 saylı bank lisenziyası əsasında fəaliyyət göstərir. VÖEN: 1300017201

4.3. **Emitentin ticarət markası:**
Emitentin ticarət markası 03.09.2008-ci il tarixində 2008 1142 nömrəli əmtəə nişanı ilə dövlət reyestrində qeydiyyata alınıb.

4.4. **Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**

4.4.1. Qeydiyyat ünvanı: Azərbaycan Respublikası, Bakı şəh., AZ1014, R.Behbudov küç., 55, məhəllə 384

4.4.2. Elektron poçt ünvanı: bank@unibank.az

4.4.3. İnternet səhifəsi: www.unibank.az

4.4.4. Əlaqə telefonları: (99412) 117, (99412) 498 22 44

4.5. **Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə):** Mövcud deyil.

4.6. **İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** Təsdiqlənmiş investisiya layihələri mövcud deyil.

4.7. **Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığını tənzimləyən bazarlar barədə məlumat:** Emitent tərəfindən buraxılacaq və bu Emissiya Prospekti ilə müəyyən olunan qiymətli kağızlar Bakı Fond Birjasında tədavül ediləcəkdir.

## 5. EMİTENTİN BİZNESİNİN İCMALI

5.1. **Emitentin əsas fəaliyyət istiqaməti:**

Emitent çoxsahəli kredit və maliyyə xidmətlərini göstərmək və Azərbaycan Respublikasının Bank sisteminin tərkib hissəsini təşkil etmək məqsədilə təsis edilmişdir. Yuxarıda qeyd edilənlərin həyata keçirilməsi üçün, Nizamnaməyə və Azərbaycan Respublikasının Qanunvericiliyinə (o cümlədən, maliyyə bazarlarına nəzarət orqanının qəbul eydiyi normativ xarakterli aktları) uyğun olaraq Emitentin məqsədləri aşağıdakılardır:

1. Azərbaycan Respublikasının iqtisadiyyatının və ölkədə bank işininin inkişafına və ölkənin dünya iqtisadiyyatına inteqrasiyasına köməklik göstərmək;
2. Bank, maliyyə və sərmayə qoyuluşu sahəsində xidmətlər göstərmək;
3. sahibkarlıq fəaliyyətinin inkişafına yönəlmiş yerli və xarici sərmayələrin və kreditlərin cəlb edilməsini təmin etmək;
4. öz vəsaitlərini, hüquqi və ayrı-ayrı fiziki şəxslərdən cəlb olunmuş vəsaitləri Azərbaycan iqtisadiyyatının və Emitentin öz fəaliyyətinin inkişafına yönəltmək;
5. Azərbaycan Respublikasının Qanunvericiliyinə, Emitentin Səhmdarlarının və müştərilərinin maraqlarına zidd olmayan Bank lisenziyasında nəzərdə tutulmuş maliyyə, kredit və digər sahibkarlıq fəaliyyətini həyata keçirmək.

Azərbaycan Respublikasının Qanunvericiliyi və bank lisenziyası ilə müəyyən edilən hüdudlarda Emitent aşağıdakı Bank əməliyyatlarını həyata keçirmək hüququna malikdir:

1. tələbli və müddətli depozitlərin , digər qaytarılan vəsaitlərin cəlb edilməsi;
2. bütün növ təminatlı və təminatsız kreditlərin, o cümlədən istehlak və ipoteka kreditlərinin və digər kredit növlərinin verilməsi;
3. faktorinq, forfeytinq və lizinq xidmətlərinin göstərilməsi;
4. müştərilərin hesablarının açılması və aparılması;
5. digər Banklar üçün müxbir hesabların açılması və aparılması;
6. klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlərin göstərilməsi;
7. ödəniş vasitələrinin, o cümlədən debet və kredit kartların, yol çeklərinin, veksellərin və digər oxşar vasitələrin buraxılması;
8. öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin, o cümlədən çeklərin, köçürmə veksellərinin, borc öhdəliklərinin və depozit sertifikatlarının, qiymətli metalların və qiymətli daşların, valyuta və faiz vasitələrinin, səhmlərin və digər qiymətli kağızların, forvard,

svop və fyuçers müqavilələrinin, opsionların və valyutalara, səhmlərə, istiqrazlara, qiymətli metallara və faiz dərəcələrinə aid digər törəmə vasitələrin alınması və satılması;

9. öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi;

10. öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;

11. maliyyə müşavirinin, maliyyə agenti və ya məsləhətçisi, o cümlədən qiymətli kağızlar portfelinin idarə edilməsi üzrə məsləhətçi xidmətlərin göstərilməsi;

12. kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;

13. sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq);

14. qiymətli metalların əmanətə cəlb edilməsi və yerləşdirilməsi;

15. qiymətlilərin, o cümlədən qiymətli kağızların, banknotların və sikkələrin inkasasiya edilməsi və göndərilməsi;

Azərbaycan Respublikasının Qanunvericiliyinə, o cümlədən Azərbaycan Respublikası maliyyə bazarlarına nəzarət orqanının tətbiq olunan qərarlarına zidd olmayan hər hansı digər fəaliyyəti

5.2. **Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək Emitentin əsas fəaliyyətlərinin təsviri:** Milli və xarici valyutada fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsi, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarının məcmu halda həyata keçirilməsi, Nizamnaməsində, bank lisenziyasında və qanunvercilikdə nəzərdə tutulmuş digər fəaliyyət növləri ilə məşğul olur.

5.3. **Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:** *Mobil bankçılıq* – MDB ölkələri arasında ən innovativ və rahat mobil əlavələrdən olan Unibank Mobile tətbiqi müştəri məmnuniyyətini yüksəltmək üçün bazara təqdim olunmuşdur. Daim inkişaf etdirilən əlavə müştərilərə banka gəlmədən bank əməliyyatlarını həyata keçirmək imkanı verir. Digər mobil bankçılıq xidmətlərindən biri Leobankdır. Leobank «mobile-only» (filialsız bank) prinsipinə uyğun olaraq yaradılmışdır. Filial şəbəkəsi, çoxsaylı işçilərin maaşları, inkasassiya və digər sahələrə vəsait yatırmağın əvəzinə kapital və enerji mükəmməl mobil tətbiqetməyə investisiya edilmişdir. Leobank xidməti vasitəsilə müştərilərə olduqca əlverişli tariflər təklif edilir. Bankların adətən müştərilərə pulla göstərdiyi, demək olar ki, bütün xidmətlər Leobank mobil bankçılıq xidməti ilə pulsuz təqdim edilir. Bunun səbəbi

filiallara pul xərclənilməməsidir. Gələcəkdə yeni növ funksiyaların əlavə edilməsi planlaşdırılır;

*Unitrasfer pul köçürmə sistemi* – Unibankın filial şəbəkəsi arasında istifadə olunan pul köçürmə sistemidir. Gələcəkdə sistemin digər banklarla inteqrasiyası və xidmət şəbəkəsinin artırılması planlaşdırılır;

5.4. **Emitentin rəqabət apardığı əsas bazarların təsviri:** Bazarın analizi Beynəlxalq modelə ("Porter`s fiive forces") əsasən analiz olunmuşdur:

**Yeni rəqibin bazara daxil olması təhlükəsi – Yüksək -** Məlumdur ki, bankçılıqda böyük həcmdə kapital tələbi mövcuddur. Sektorun xarakteristikalarına diqqət yetirdikdə həm istehlakçıların daha güvənilən və uzun illər fəaliyyətdə olan maliyyə qurumlarına güvənməsi və üstünlük verməsi, həm də innovasiya və brend yaratmağın kifayət qədər investisiya tələb etməsi bazar giriş maneələrini artırır.

**Bazarda mövcud rəqabətlilik – Çox Yüksək -** Emitentin Azərbaycan Respublikası ərazisində rəqabət apardığı əsas bankların siyahısına "Kapital Bank", "Raitəbank", "Beynəlxalq Bank", "Expressbank", "Accessbank", "PAŞA Bank, "Yelo Bank" və digər bankları aid etmək olar. Hər bir rəqib yeni müştərilər cəlb etmək üçün yeni maliyyə xidmətləri təklif edir və innovasiyanı dəstəkləyir.

**Alternativlərin mövcudluğu – Yüksək** – Həm eyni bazarda rəqiblər, həm də bank olmayan kredit təşkilatları və oxşar maliyyə xidmətləri təqdim edən şirkətlər bankın əsas anternativləri hesab olunur.

**Təchizatçının Gücü – Orta** – Bankın fəaliyyətini davam etməsi üçün əsas resurs kapitaldır və bu, əsasən, müştəri əmanətləri və bank kreditlərindən əldə olunur. Pandemiya ilə əlaqədar pul kütləsinin süni artırılması və digər faktorları nəzərə aldıqda hər iki qrup üzrə təchizatçı gücü orta səviyyədədir.

**İstehlakçının Gücü – Aşağı –** Buna əsas səbəb mövcud müştərilərin bir bankdan digər banka keçməsinin yüksək xərc tələb etməsidir. Qeyd edilən hal həm fərdi müştərilərə, həm korporativ müştərilərə aid edilə bilər.

5.5. **Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onu əsaslandırması:** Mövcud deyil.

## 6. DİGƏR TƏŞKİLATLARDA İŞTİRAK

- Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri: "Unicapital" İnvestisiya Şirkəti Açıq Səhmdar Cəmiyyəti (payçı). Emitentin ASC-nin nizamnamə kapitalında payı 100% təşkil edir. Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, Rəşid Behbudov küç. 55 384-cü məhəllə. VÖEN: 1401258741

- "MilliKart" Məhdud Məsuliyyətli Cəmiyyət (payçı). Emitentin MMC-nin nizamnamə kapitalında payı 8 % təşkil edir. Ünvan: Azərbaycan Respublikası, Bakı şəh., Alı Mustafayev, 5A. VÖEN: 1400980591

- S.W.I.F.T (Ümumdünya Banklararası Maliyyə Telekommunikasiya Cəmiyyəti). SWIFT korporativ üzvlüyə malik olan və təhlükəsiz maliyyə mesajlaşma xidmətləri üzrə dünyanın aparıcı provayderidir. Emitentin onun nizamnamə kapitalında payı 3,43% təşkil edir.SWIFT-in mesajlaşma xidmətləri dünyanın 200-dən çox ölkəsində və ərazilərində 11000-dən çox maliyyə qurum tərəfindən istifadə olunur və etibarlıdır. SWIFT-in standartlaşdırma sahəsində rolu banklar və digər maliyyə institutları arasında təhlükəsiz, maneəsiz və avtomatlaşdırılmış maliyyə əlaqələrini təmin etməkdir. Ünvan: 1, Avenue Adèle, B-1310 La Hulpe (Belçika) RPM Nivelles – VAT BE 0413.330.856 e-mail: shareholding@swift.com Fax: +32 2 655 4036; Tel: +32 2 655 4490 (https://www.swift.com)
- Azərbaycan Kredit Bürosu MMC. Emitentin MMC-nin nizamnamə kapitalında payı 12.50 % təşkil edir. Ünvan:Bakı şəhəri, S.Vurgun küçəsi 43, VÖEN 1305349901.
- Azərbaycan Banklar Assosiyasiyası (ABA) - üzv
- AR Ticarət-Sənaye Palatası - üzv
- Azərbaycanda Amerika Ticarət Palatası (AMCHAM) - üzv
- Alman Azərbaycan Xarici Ticarət Palatası İctimai Birliyi - üzv

6.1. **Emitentin qrupdakı digər müəssisələrdən asılı olduğu təqdirdə bu barədə məlumat:** Mövcud deyil.

## 7. TENDENSİYALAR BARƏDƏ MƏLUMAT

7.1. **Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən Emitentin emissiya prospektində mənfi dəyişikliyin olub-olmaması barədə məlumat:** Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emissiya prospektinə mənfi təsir edə biləcək hər hansı bir hadisə baş verməmişdir.

7.2. **Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:** Cari maliyyə ilində "Unibank" Kommersiya Bankı" ASC -nin fəaliyyətinə təsir etmə ehtimalı olan tendensiyalara aşağıdakıları aid etmək olar:

**Tələbin volatilliyi**

Emitentin əsas faiz gəlirinin böyük hissənin müştəri kreditlərindən gəlir və kreditlərin təqribən 30% biznes, 70% istehlakçı kreditlərindən ibarətdir. Bu halda hər iki gəlir seqmentində də tələbdəki volatillik Emitentin fəaliyyətinə təsir göstərən əsas amillərdən biri olacaq. Post-pandemiya dövründə nisbi iqtisadi bərpanın müşahidə olunması və nəticədə müştəri güvəninin, eləcə də aktivliyinin artması fonunda həm istehlakçı kreditləri, həm də biznes kreditlərinin artması gözlənilir. Lakin gözlənilən bərpa baş tutmasa bunun əksi kimi tələbin azalması da istisna hal deyil.

**Bazar rəqabətliliyi**
Bankçılıq sahəsində artan rəqabət və birdən çox güclü rəqibin mövcudluğu yeni bazar payının əldə olunması və cari bazar payının saxlanmasında risklərə səbəb ola bilər.
**Geosiyasi risklər və qeyri-müəyyənlik**
Qeyri-müəyyənlik riskin yaranmasının xarakterik səbəbidir. Bu hallarda geosiyasi risklər, və ya iqtisadiyyatın istənilən sahəsində qeyri-müəyyənlik zamanı maliyyə xidmətləri və bankşılıq orta dərəcədə təsirlənən sahələrdəndir. Məhz buna görə də hər hansı geosiyasi risk bankın gəlirlərinə də mənfi təsir göstərə bilər.
**Koronavirus (COVİD-19) pandemiyasının mümkün yeni dalğası**
Məlumdur ki, koronavirus (COVİD-19) pandemiyası dünya iqtisadiyyatının bir sıra sahələrinə, eləcə də bankçılığa mənfi təsir göstərib və banklar üzərində innovasiya və yeni xidmətlərin sərfəli şərtlərlə təklifinə olan təzyiqi artırıb. Banklar birbaşa bu təsiri hiss etməsə də dolayı yollarla iqtisadi durğunluq və istehlakçı aktivliyinin azalması öz mənfi təsiri göstərir. Yeni Delta variantının artması və gözlənilən pandemiya sonrası bərpanın gecikməsi Emitentin fəaliyyətinə mənfi təsir göstərə bilər.

## 8. GƏLİR PROQNOZU HAQQINDA HESABAT

8.1. **Gəlir proqnozu barədə məlumat:** Mövcud deyil.

8.2. **Gəlir proqnozunun əsasını təşkil edən fərziyyələr haqqında hesabat:** Mövcud deyil.

## 9. EMİTENTİN İDARƏETMƏ VƏ NƏZARƏT ORQANLARI

9.1. **Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə məlumatlar:**
Müşahidə Şurası barədə məlumat:

| № | Soyadı, adı, atasının adı | Vəzifə |
|---|---|---|
| 1 | Qəribov Eldar Mahmud oğlu | Müşahidə Şurasının Sədri |
| 2 | Quliyev Emin Natiq oğlu | Müşahidə Şurasının üzvü – Müşahidə Şurası sədrinin müavini |
| 3 | Qəribli Elxan Əhməd oğlu | Müşahidə Şurasının üzvü |
| 4 | Kristof Gabriel Maetze | Müşahidə Şurasının üzvü |
| 5 | Kamen Zaxariyev | Müşahidə Şurasının üzvü |

İdarə Heyəti haqqında məlumat:

| № | Soyadı, adı, atasının adı | Vəzifə |
|---|---|---|
| 1 | Hüseynov Faiq Arif oğlu | İdarə Heyətinin Sədri |
| 2 | Abuşov Fərid Şakir oğlu | İdarə Heyətinin Sədrinin birinci müavini |
| 3 | Zeynalov Faiq Vahib oğlu | İdarə Heyətinin üzvü - Baş maliyyə inzibatçısı |
| 4 | Rəsulzadə Emin Fərid oğlu | İdarə Heyətinin üzvü |

## 10. EMİTENTİN NİZAMNAMƏ KAPİTALINDA MÜHÜM İŞTİRAK PAYINA SAHİB OLAN ŞƏXSLƏR

10.1. **Emitentin nizamnamə kapitalında 10 (on) faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti:** Emitentin nizamnamə kapitalında 10 (on) faizdən artıq iştirak payı olan təsisçilərin payı aşağıdakı kimidir:

| | Adi səhmlərin sayı | % | Vətəndaşlıq |
|---|---|---|---|
| *Qəribov Eldar Mahmud oğlu* | 39916476 | 86,3839% | Azərbaycan |

10.2.**Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:** Emitentin ümumi fəaliyyətinə nəzarəti Səhmdarların Ümumi Yığıncağı və Müşahidə Şurası həyata keçirir. Azərbaycan Respublikasının "Banklar haqqında" Qanununun 40.3-cü bəndinə əsasən bankların aidiyyəti şəxslərə digər şəxslərdən fərqli olaraq güzəştli şərtlərlə bank xidmətlərinin göstərilməsi qadağandır. Eyni zamanda, Mülki Məcəllənin 49-1-ci maddəsində aidiyyəti şəxslərlə əqdlərin bağlanması qaydası nəzərdə tutulmuşdur.

10.3. **Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Mövcud deyil.

## 11. EMİTENTİN MALİYYƏ MƏLUMATLARI

11.1. **Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:** Sənəd bu Emissiya Prospektinə əlavə edilmişdir.

11.2. **Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları:** Emitent 1992-ci il tarixindən fəaliyyət göstərir.

11.3. **Maliyyə hesabatları MHBS-yə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır:** Maliyyə Hesabatları MHBS-yə uyğun hazırlanır.

11.4. **Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin hesabatları onun törəmə şirkəti olan

"Unicapital" İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətin ilə birgə konsolidasiya olunur. Sənəd bu Emissiya Prospektinə əlavə edilmişdir

11.5. **Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarım illik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə, onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir:** Mövcuddur. Audit olunmamışdır. Məlumatlarla keçid vasitəsilə tanış ola bilərsiniz. (https://unibank.az/az/documents/quarterlyReports)

11.6. **Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarımillik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** Mövcuddur. Audit olunmamışdır. Məlumatlarla keçid vasitəsilə tanış ola bilərsiniz. (https://unibank.az/az/documents/quarterlyReports)

11.7. **7 il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** Mövcud deyil.

11.8. **Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** Son dərc olunmuş maliyyə hesabatlarından sonra Cəmiyyətin aktivlərində ötən il ilə müqayisədə təqribən 19%, nağd və nağd vəsait ekvivalentlərində isə 2% azalma müşahidə olunmuşdur.

11.9. **Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Mövcud deyildir.

## 12. İSTİQRAZLAR BARƏDƏ TƏLƏB OLUNAN ƏSAS MƏLUMAT

12.1. **Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması barədə ətraflı məlumat: Emissiyada aşağıdakı şəxslər iştirak edir və onlar arasında maraqlar toqquşması mövcud deyil:**

12.1.1. **"Bakı Fond Birjası" QSC.** Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarətini təşkil edir. İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

12.1.1.1. İstiqrazların listinqə daxil edilməsi;

12.1.1.2. İstiqrazların hərrac vasitəsilə yerləşdirilməsi üçün müvafiq ticarət sisteminin təmin edilməsi;

12.1.1.3. İstiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsi.

12.1.2. **"Milli Depozit Mərkəzi".** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

12.1.2.1. İstiqrazların saxlanması və uçotunun aparılması;

12.1.2.2. İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;

12.1.2.3. Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

12.1.3. **Anderrayter. "Unicapital İnvestisiya Şirkəti" ASC.** Müvafiq lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. İstiqrazların buraxılışı və yerləşdirilməsi prosesində anderrayterin vəzifələri aşağıdakılardır:

12.1.3.1. İstiqrazların yerləşdirilməsi üzrə hərrac zamanı toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;

12.1.3.2. Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alqı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək;

12.1.3.3. Emissiyanın yekunları haqqında hesabat Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq ediləndən sonra, yerləşdirmə nəticəsində toplanmış pul vəsaitlərini Emitentin bank hesabına köçürülməsini təmin etmək.

12.2. **İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:** Emissiyadan əldə olunan vəsait bankın strateji hədəflərini reallaşdırması, bazar nüfusunun və bazar payının artırılması, eləcə də xarici mühitdə yaranacaq hər növ dəyişikliyə cəld və effektiv adaptasiyanın təmini üçün lazımi resursların və mexanizmlərin təkmilləşdirilməsinə investisiya olunacaq. Əlavə olaraq, ölkə daxilində sərfəli və keyfiyyətli bankçılıq xidmətləri təklif etməklə regionlarda real iqtisadiyyatın maliyyələşdirilməsi region bölgələrində iqtisadi rifahın və məşğulluğun artırılmasına müsbət təsir göstərəcəkdir.

12.3. **Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələri maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə, tələb olunan əlavə pul vəsaitlərin məbləği və mənbələri:** Cəmiyyətin layihələri üzrə istiqrazlardan əldə ediləcək 20 (iyirmi) milyon manat həcmində vəsaitdən əlavə olaraq digər mənbələrdən vəsaitin ayrılması nəzərdə tutulmamışdır.

12.4. **Əldə olunan vəsaitlərin digər müəssisələrin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya Emitentin əsas fəaliyyətinə aidiyyəti olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:** Əldə olunacaq vəsait bu bənddə göstərilən istiqamətlər üzrə istifadə olunmayacaqdır.

## 13. İSTİQRAZLAR BARƏDƏ MƏLUMAT

13.1. **Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan

Respublikasının Qanunu, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016 -cı il tarixli 05 saylı qərarı ilə təsdiq edilmiş "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar" və 27 yanvar 2016-cı il tarixli 04 saylı qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar".

13.2. **İstiqrazların növü:** Faizli, təminatsız, sənədsiz, adlı istiqrazlar.

13.3. **Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı-ayrılıqda göstərilməklə):**

| | Yeni buraxılış | Mövcüd buraxılışlar | Mövcud buraxılışlar |
|---|---|---|---|
| Say: | **20 000 (iyirmi min)** | **15 000 (on beş min)** | **1 000 (bir min)** |
| Nominal dəyəri: | **1 000 (bir min) manat** | **1 000 (bir min) ABŞ dolları** | **10 000 (on min) ABŞ dolları** |

13.4. **İstiqrazların valyutası:** Azərbaycan Manatı.

13.5. **İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi depozitarın olduğu yer:** Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1141, Həsən bəy Zərdabi prospekti 2A, Şokolad Tauer.

13.6. **Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:** Təklif edilən istiqrazların reytinqi mövcud deyil.

13.7. **İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:** İstiqrazlar üzrə məhdudiyyət mövcüd deyildir. İstiqraz mülkiyyətçiləri aşağıdakı hüquqlara malikdirlər:

13.7.1. Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini bütün digər kreditorların tələbləri ilə birlikdə növbəlilik prinsipi əsasında Emitentdən tələb etmək;

13.7.2. Özünə məxsus istiqrazların vəziyyəti barədə məlumat almaq üçün birbaşa Milli Depozit Mərkəzinə (bundan sonra "Mərkəzi Depozitar") müraciət etmək;

13.7.3. İstiqrazları girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yükləmək. Belə yüklənmə qiymətli kağızlar üzrə depozitar sistemində qeydiyyata alındığı andan qüvvəyə minir;

13.7.4. İstiqrazlarla təsdiqlənmiş hüquqları alqı-satqı əqdləri bağlamaq yolu ilə ötürmək;

13.7.5. İstiqrazlar üzrə ödənilən faizlər təxirə salınarsa, həmin müddət ərzində ödənilməyən faizləri istiqrazların ödənilmə vaxtında almaq;

13.7.6. İstiqrazları tədavül müddəti ərzində istənilən vaxt özgəninkiləşdirmək;

13.7.7. İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;

13.7.8. İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən illik 9 (doqquz) faiz həcminə qədər faiz almaq;

13.7.9. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

13.8. **İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi (müəyyən olduqda):** İllik 9 (doqquz) faiz.

13.9. **İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 9 faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül dövründə (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 18 ay müddətində, ildə günlərin sayı 360 (üç yüz altmış) olaraq götürülməklə) istiqrazların tədavül müddəti ərzində ardıcıl olaraq hər 90 (doxsan) təqvim gününün başa çatması tarixindən növbəti 3 iş günündən gec olmayaraq ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirlir. İstiqrazların nominal dəyəri sonuncu kupon ödənişi ilə birlikdə ödəniləcəkdir.

13.10. **Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

13.11. **Faiz dərəcəsi müəyyən olunmadığı halda, istiqrazın faiz dərəcəsinin hesablanması üsulu.** Faiz dərəcəsi müəyyən olunmuşdur.

13.12. **Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi mövcud deyil. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcəkdir.

13.13. **Ödənişlər üzrə hesablaşma agentinin adı:** İstiqrazlar üzrə faiz (kupon) ödənişləri və nominal dəyər üzrə əsas ödəniş Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların yerləşdirilməsi zamanı pul vəsaitlərinin toplanması "Unicapital İnvestisiya Şirkəti" ASC-nin hesablaşma agenti olan "Unibank KB" ASC vasitəsi ilə yerinə yetiriləcəkdir.

13.14. **Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** Təklif edilən istiqrazlar təminatsızdır.

13.15. **İstiqrazların geri satın alınmasının şərtləri:** İstiqrazların Emitent tərəfindən geri satın alınması nəzərdə tutulmamışdır.

13.16. **Gəlirlik dərəcəsi və onun hesablanması qaydası:** İstiqrazlar üzrə kupon gəlirliyi illik 9 (doqquz) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$TF = \frac{\left(\frac{N * D * G}{360}\right)}{100}$$

Burada:

$TF$ – Bir istiqraz üzrə toplanmış faizlər;
$N$ – Bir istiqrazın nominal dəyəri (1 000 (bir min));
$D$ – İstiqrazların illik faiz dərəcəsi (9 (doqquz) %);
$G$ – İstiqrazlar üzrə son kupon ödənişindən sonra keçən günlərin sayı.

13.17. **İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** Mövcud deyil.

13.18. **İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş Emitentin idarəetmə orqanının adı:** Bankın Müşahidə Şurasının 24.11.2021-ci il tarixli 7 saylı Qərarı (Protokol) ilə.

13.19. **İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda)**: Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

13.20. **İstiqraz üzrə gəlirlərdə mənbədən verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə Emitentin öhdəliyi:**

13.20.1. **İstiqraz üzrə gəlirlərdə mənbədən verginin tutulması barədə məlumat:** İstiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində tutulan vergidən fiziki şəxslər 2023-cü ilin fevral ayının 1-dək azaddırlar. Hüquqi şəxslərə istiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində 10 % vergi tətbiq edilir.

İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

14.20.2. **İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə Emitentin öhdəliyi:**

İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması üzrə Emitentin öhdəliyi müvafiq müqavilə əsasında ödəniş agenti olan Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi ötürülür. Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi faiz (kupon) ödənişi günündən bir iş gün əvvələ düşən iş gününün sonunda saat 18.00-da istiqraz sahiblərinin reyestrini formalaşdıracaqdır. Növbəti iş günü (ödəniş günü) həmin reyestrdə adları qeyd olunan investorlara sahib olduqları istiqrazların sayına görə müvafiq faiz (kupon) ödənişinin məbləği hesablanacaqdır. Bu faiz ödənişinin məbləğindən ödəmə mənbəyindən tutulan verginin məbləği çıxıldıqdan sonra xalis faiz ödənişinin məbləği investorların bank hesabına köçürüləcəkdir.

## 14. TƏKLİFİN ŞƏRTLƏRİ

14.1. **Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:** İstiqraz buraxılışı üzrə yerləşdirmənin başlanma və başa çatma tarixləri istiqrazlar dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 (iki) iş günü qalmış "Bakı Fond Birjası" QSC-nin (www.bfb.az) və Anderrayterin saytında investorlara açıqlanacaqdır.

14.2. **Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:** Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 (beş) iş günü

ərzində qanunvericilikdə müəyyən edilmiş orqana (quruma) təqdim edilir. Emissiya prospektində dəyişikliklər müvafiq ərizənin daxil olduğu gündən 10 (on) iş günü ərzində dövlət qeydiyyatına alınır. Qeyd olunan dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən 5 (beş) iş günü ərzində vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem), fond birjasının və Emitentin internet səhifəsində açıqlanır və açıqlandığı tarixdən 15 (on beş) iş günü bitdikdən sonra qüvvəyə minir.

14.3. **Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və Emitentin internet səhifəsində açıqlanır.

14.4. **İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:** İstiqrazların yerləşdirilməsi abunə yazılışı aparılmadan həyata keçiriləcəkdir.

14.5. **İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası:** İstiqrazlar Bakı Fond Birjası QSC-nin ticarət platformasında rəqabətli hərrac üsulu vasitəsilə yerləşdiriləcəkdir. Hərrac zamanı ilk növbədə investorlar tərəfindən təqdim edilən ən yüksək qiymətli sifarişlər təmin ediləcəkdir. Qiymət bərabər olduqda sifarişlərin həcminə uyğun olaraq mütənasib qaydada təmin ediləcəkdir. İstiqrazların nominal dəyərindən (1000 Azərbaycan manatı) aşağı qiymətə verilmiş sifarişlər təmin edilməyəcəkdir. Hərrac bir və ya bir neçə gün ərzində, hərraca çıxarılan istiqrazların həcmi tam yerləşdirilənədək davam edə bilər. Hərrac zamanı qeyri-rəqabətli sifarişlər nəzərdə tutulmamışdır.

14.6. **İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:** İstiqrazların yerləşdirilməsi nəticəsində istiqrazlar investorların depo hesabına köçürülərək dondurulacaq, pul vəsaitləri isə anderrayterin hesablaşma agentində açılmış bank hesabına köçürüləcəkdir. Buraxılış üzrə istiqrazların emissiyasının yekunları haqqında hesabat Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq edildikdən sonra, investorların depo hesabında olan istiqrazlar dondurmadan azad ediləcək, pul vəsaitləri isə Emitentin bank hesabına köçürüləcəkdir.

14.7. **Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** Emissiya ediləcək istiqrazlar həm fiziki, həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

14.8. **İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** İstiqraz buraxılışı üzrə yerləşdirmənin başlanma və başa çatma tarixləri istiqrazlar dövlət qeydiyyatına alındıqdan sonra yerləşdirmənin başlanmasına ən azı 2 (iki) iş günü qalmış "Bakı Fond Birjası" QSC-nin (www.bfb.az) və Anderrayterin saytında investorlara açıqlanacaqdır.

14.9. **İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətinin müəyyənləşdirmə metodunu göstərməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barədə məlumat:** Bir istiqrazın təklif qiyməti 1000 (bir min) manat təşkil edir.

14.10. **İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

14.10.1. **Vergilər**. İstiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində tutulan vergidən fiziki şəxslər 2023-cü ilin fevral ayının 1-dək azaddırlar. Hüquqi şəxslərə istiqrazlar üzrə ödənilən faiz (kupon) ödənişindən ödəmə mənbəyində 10 % vergi tutulur.

İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi dəyişərsə, tətbiq ediləcək vergilər barədə məlumat emitent və ya anderrayter tərəfindən kütləvi informasiya vasitələri ilə investorların diqqətinə çatdırılacaqdır.

14.10.2. **Xərclər**. İstiqrazın əldə olunması ilə bağlı broker xərcləri investisiya şirkətlərinin tarif siyasətindən asılıdır. Xərclər barədə məlumat almaq istəyən investorlar onlara investisiya xidməti göstərən investisiya şirkətinə müraciət etməlidir. Bakı Fond Birjasında yerləşdirmə xərcləri isə icra olunan əqdin həcmindən 0.02% (sıfır tam onda iki faiz) təşkil edir.

14.11. **İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı). Xidmət haqqı:**

14.11.1. İstiqrazlar öhdəlik götürülmədən yerləşdirilir.

14.11.2. **Adı:** "Unicapital İnvestisiya Şirkəti" ASC

14.11.3. **Lisenziyası:** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən İnvestisiya şirkəti fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş İSN/L-30 /2016, 087910 nömrəli Lisenziya

14.11.4. **Ünvanı:** Bakı şəhəri, Rəşid Behbudov küç. 55 384-cü məhəllə, Azərbaycan

14.12. **Xidmət haqqı:** Ümumi yerləşdirilmiş məbləğin 0.5-i% həcmində müəyyən olunmuşdur.

14.13. **Aderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxt:** 29.02.2016-cı il. 01HR nömrəli İnvestisiya xidmətlərinin göstərilməsinə dair müqavilə.

## 15. İSTİQRAZLARIN TİCARƏTƏ BURAXILMASI VƏ ONUN TƏNZİMLƏNMƏSİ

15.1. **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə Emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda, istiqrazların ticarətə buraxılacağını tənzimləyən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya Prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların listinqə daxil edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

15.2. **Market meyker(lər) barədə məlumat:** Emitent istiqrazların likvidliyinin qorunması və Azərbaycan Respublikasının qiymətli kağızlar bazarını inkişafına töfhə verilməsi məqsədi ilə, 24.11.2021-ci il tarixli 7 saylı Müşahidə Şurasının qərarı əsasında "Unicapital İnvestisiya Şirkəti" ASC-ni market-meyker qismində təyin etmişdir .

## 16. KREDİT REYTİNQLƏRİ

16.1. **Reytinq prosesində Emitentin sorğusu və ya Emitentlə əməkdaşlıq nəticəsində Emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri:** Mövcud deyil.

## ƏLAVƏLƏR

## AUDİT OLUNMUŞ MALİYYƏ HESABATLARI